AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

TƏHSİL İNSTİTUTU
Azərbaycan Respublikasının Təhsil İnstitutu

**Kurikulum**



# TƏHSİL PSİXOLOQU

**Bakı**
**Yanvar, 2019-cu il**

Bu kurikulum Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Kurikulumda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

**Dəyişikliklər haqqında məlumat**

| Versiyanın nömrəsi | Təsvir | Tarix | Təsdiq edilmişdir |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**MÜNDƏRİCAT**


**1. Ümumi məlumat ..... 5**
**2. Təhsil proqramının (kurikulumun) ümumi məqsədləri ..... 5**
**3. Peşənin / kvalifikasiyanın qısa təsviri: ..... 7**
**4. Məşğulluq imkanları: ..... 7**
**5. Bilik, bacarıq, müstəqillik və məsuliyyət səviyyəsi: ..... 7**
**6. Peşə / kvalifikasiya üçün xüsusi tələblər: ..... 8**
**7. Təlim nəticələrinin qiymətləndirilməsi: ..... 8**
**8. Kredit transferi: ..... 8**
**9. Nümunəvi tədris planı: ..... 8**
**10. Modullarda olan səriştələrin spesifikasiyası: ..... 10**
10.1. Əsas səriştə modulları ..... 10
10.2. Ümumi səriştə modulları ..... **Error! Bookmark not defined.**
10.3. Xüsusi/spesifik səriştə modulları ..... 25
**11. Pedaqoji prosesin təşkili: ..... 27**
**12. Yekun dövlət attestasiyası ..... 29**
**13. Xüsusi qayğıya və ya əlavə dəstəyə ehtiyacı olan tələbələr: ..... 30**
**14. Kurikulumun hazırlanması prosesində iştirak edənlərin siyahısı: ..... 30**

## 1. Ümumi məlumat

Tədris fənləri modullaşdırılmış strukturda olan bu təhsil proqramı təhsilalanların müvafiq sahə üzrə bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə imkan yaratmaqla onları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlayacaq. Proqramı uğurla başa vuran təhsilalanlar müasir əmək bazarında işçidən tələb olunan və işəgötürənlər tərəfindən müəyyən edilən səriştələrə yiyələnəcəklər.

Təhsil proqramı «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı»nın, «Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları»nın tələblərinə və «Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı»na uyğun hazırlanmışdır.

## 2. Təhsil proqramının (kurikulumun) ümumi məqsədləri

3. Təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabətqabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq;
4. Yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq;
5. Psixoloji maarifləndirmə və profilaktika işlərini aparmağı, psixoloji konsultasiya əsasında psixodiaqnostikanı həyata keçirməyi və əldə edilən nəticələrə uyğun olaraq psixokorreksiya fəaliyyətini həyata keçirməyi bacaran və bu prosesi uğurlu şəkildə qura bilən yüksək səviyyəli və rəqabətqabiliyyətli kadrlar hazırlamaq.

| | |
|---|---|
| Ali təhsilin müvafiq səviyyəsi üzrə ixtisasların təsnifatında şifri (kodu): | 050118 |
| İqtisadiyyatın əhatə olunan sahələri: | Təhsil |
| İstinad edilən kvalifikasiya standartı: | Təhsil psixoloqu |
| Məşğulluq təsnifatında işin kodu: | 2634 (Psixoloq, pedaqogika) |
| Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində (AzMKÇ) səviyyəsi: | 6 |
| Qəbul tələbləri:[1] | Tam orta təhsil |
| Məzunların təhsilini davam etdirmə istiqamətləri:[2] | 1. Korreksiyaedici təlim;<br>2. Pedaqogika;<br>3. İbtidai sinif müəllimliyi. |
| Tam təhsil proqramının müddəti[3]: | 4 il |
| Hədəf qrupu (kvalifikasiya üçün) | Tam orta təhsili başa vurmuş istənilən şəxs |
| Qəbul edən qurum: | Azərbaycan Respublikası Təhsil Nazirliyi |
| Hazırlanma tarixi: | Yanvar, 2019-cu il |
| Yenilənmə üçün son tarix: | Yanvar, 2024-cü il |

[1] İxtisasa qəbul olunmaq üçün əvvəlki təhsil pilləsi (səviyyəsi) və təcrübə ilə bağlı tələblər.
[2] Növbəti təhsil pilləsində (səviyyəsində) təhsil ala biləcəyi əlaqəli ixtisas(lar).
[3] Təhsil proqramdakı modullardan biri (bir neçəsi) üzrə kreditə malik olan təhsilalanlara həmin modul(lar) tədris edilmir və təhsil proqramının müddəti müvafiq həcmdə qısaldılır.

## 6. Peşənin / kvalifikasiyanın qısa təsviri:

Təhsil psixoloqu çalışdığı təhsil müəssisəsində təhsildə çətinliklərlə qarşılaşan, inkişafı və davranışında çatışmazlığı olan uşaqların üzə çıxarılması məqsədi ilə şagirdlərin intellektual və şəxsi emosional inkişafını, fərdi-psixoloji xüsusiyyətlərini öyrənir, siniflərdə və qruplarda sosial-psixoloji mühiti tədqiq edir, eyni zamanda birinci sinfə qəbul edilən uşaqların məktəbə psixoloji cəhətdən hazırlığını müəyyən edir, onların birinci sinfə qəbul edilməsi prosesində bilavasitə iştirak edir.

## 7. Məşğulluq imkanları:

Təhsili başa vurduqdan sonra adətən müxtəlif təhsil müəssisələrində müntəzəm iş saatlarında, eləcə də digər yerlərdə psixoloji xidmət (məsləhət, qrup işləri, treninqlər və s.) göstərə bilər. Təcrübə əldə etdikdən sonra rəhbər vəzifəyə yüksəlmək mümkündür. Özünü-məşğulluq üçün əlverişli imkanlar mövcuddur.

## 8. Bilik, bacarıq, müstəqillik və məsuliyyət səviyyəsi:[4]

| Bilik | Bacarıq | Müstəqillik və məsuliyyət |
|---|---|---|
| – Ünsiyyət qurma metodları;<br>– Şəxsiyyət psixologiyası;<br>– İdarəetmə psixologiyası;<br>– Xüsusi psixologiya və kliniki psixologiya;<br>– Psixoloji maarifləndirmə, psixoloji profilaktika və psixoloji konsilium;<br>– Psixodiaqnostika;<br>– Psixokorreksiya metodları;<br>– Psixoloji konsultasiya;<br>– Psixoloji xidmətin təşkili prinsipləri və etik tələblər. | – Ünsiyyət qurmaq bacarıqları;<br>– Psixoloji maarifləndirmə işlərinin təşkili;<br>– Konsultasiyanı təşkil etmə;<br>– Psixoloji konsultasiya aparma;<br>– Konsultasiya prosesini qiymətləndirmə;<br>– Fərdi və qruplarla işləmə bacarıqları;<br>– Şəxslərə uyğun metodikanın müəyyən etmə;<br>– Psixodiaqnostikanı həyata keçirmə;<br>– Psixoloji diaqnozu tərtib etmə;<br>– Psixokorreksiya prosesini həyata keçirmə; | – Etibarlı, məsuliyyətli, səmimi, təşəbbüskar və dəqiq olmaq;<br>– Qayğıkeş, istiqanlı, səbrli, anlayışlı olmaq;<br>– Məsələlərə obyektiv yanaşmaq;<br>– Çevik olma, asanlıqla uyğunlaşmaq;<br>– Təfərrüatlara diqqət yetirmək;<br>– Müxtəlif həyat tərzlərinə qarşı açıq fikirli olmaq;<br>– Yaradıcı yanaşma;<br>– Yüksək motivasiyalılıq;<br>– Emosional davamlılıq;<br>– Dəyişən iş saatlarına uyğunlaşmaq;<br>– Yaradıcılıq, öyrənməyə meyllilik; |

[4] Tələb olunan bilik, bacarıq, məsuliyyət və müstəqillik haqqında ətraflı məlumat müvafiq peşə standartında verilmişdir.

| | | |
|---|---|---|
| | – Psixokorreksiya işinin nəticələrini qiymətləndirmə. | – Özünüinkişaf və özünütərbiyə bacarıqları;<br>Xarici dillərdə olan təlimatları başa düşmə. |

Bütün bilik və bacarıqlar təhsil proqramının / kurikulumun modullarında tədris olunacaq. Müstəqillik və məsuliyyət səviyyələri Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində (AzMKÇ) səviyyə deskriptorlarına (təsvirlərinə) uyğun tərtib edilmişdir.

### 9. Peşə / kvalifikasiya üçün xüsusi tələblər:

Müxtəlif xarakterli insanlar və problemlərlə işlədiyinə görə stresə davamlı olmalıdır. Fiziki cəhətdən sağlam və güclü olmaq tələb olunur.

### 10. Təlim nəticələrinin qiymətləndirilməsi:

Təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi təlim nəticələri əsasında qiymətləndirilir.

Qiymətləndirilmə müvafiq qanunvericiliyə uyğun həyata keçirilir.

### 11. Kredit transferi:

Ali təhsil müəssisələrində tədris prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil olunur. Kredit sistemi üzrə tədrisin təşkili qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

### 12. Nümunəvi tədris planı:

1 kredit = 30 saat

| | Modulların siyahısı | Həftəlik auditoriya saatı | Cəmi auditoriya saatı | Cəmi saat | Kreditlərin sayı[5] |
|---|---|---|---|---|---|
| | **Əsas səriştə modulları[6]** | | **420** | **1140** | **38** |
| 1. | Azərbaycan dilində ünsiyyət | 6 | 90 | 210 | 7 |
| 2. | Xarici dildə ünsiyyət | 4 | 60 | 180 | 6 |
| 3. | Riyazi hesablama | 3 | 45 | 120 | 4 |

---

[5] Kredit dəyəri Avropa Kredit Transferi və Toplanması Sisteminə (AKTTS) müvafiq müəyyən edilir.

[6] Avropa Şurasının Ömürboyu təhsil üzrə əsas səriştələrə dair tövsiyələrinə (22 may 2018-ci il, N: 2018/C 189/01) uyğun olaraq müəyyən edilmişdir. Bu modullar təhsilalanların daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, insan hüquqları və azadlıqlarına, ictimai dəyərlərə hörmət ruhunda yetişməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilə hazırlanmasını təmin etməyə xidmət edir.

| | Modulların siyahısı | Həftəlik auditoriya saatı | Cəmi auditoriya saatı | Cəmi saat | Kreditlərin sayı[5] |
|---|---|---|---|---|---|
| 4. | İnformasiya və kommunikasiya texnologiyaları (İKT) | 3 | 45 | 120 | 4 |
| 5. | Peşə etikası və sosial həyat bacarıqları | 4 | 60 | 180 | 6 |
| 6. | Sahibkarlıq | 3 | 45 | 120 | 4 |
| 7. | Öyrənmək üsullarına yiyələnmə | 3 | 45 | 120 | 4 |
| 8. | Azərbaycan tarixi | 2 | 30 | 90 | 3 |
| | **Ümumi səriştə modulları[7]** | | **450** | **1140** | **38** |
| 9. | **Sağlamlıq və əməyin mühafizəsi**<br>– Sağlamlıq və təhlükəsizliyin qorunması<br>– İlk yardımın göstərilməsi<br>– Yanğından mühafizə qaydalarının həyata keçirilməsi | 6 | 90 | 210 | 7 |
| 10. | Hesabatvermə və sənədləşdirmə | 2 | 30 | 90 | 3 |
| 11. | Planlaşdırma | 2 | 30 | 60 | 2 |
| 12. | Mənəvi, psixoloji və fiziki sağlamlığın qorunması | 4 | 60 | 180 | 6 |
| 13. | Pedaqoji prosesin psixoloji əsaslarla təşkili – 1 | 4 | 60 | 150 | 5 |
| 14. | Pedaqoji prosesin psixoloji əsaslarla təşkili – 2 | 4 | 60 | 150 | 5 |
| 15. | Gündəlik fəaliyyətdə tibbi-psixoloji biliklərin tətbiqi | 2 | 30 | 90 | 3 |
| 16. | Müxtəlif sosial qruplarda psixoloji təlim işinin təşkili | 2 | 30 | 60 | 2 |
| 17. | Psixologiyanın əsaslarının və sahələrinin öyrənilməsi | 2 | 30 | 90 | 3 |
| 18. | Mövcud vəziyyət ilə bağlı şəxsin yaxınları ilə əməkdaşlığın təşkili | 2 | 30 | 60 | 2 |
| 19. | **Xüsusi səriştə modulları** | | **1020** | **2400** | **80** |
| 20. | Psixoloji maarifləndirmə və profilaktika işlərinin aparılması | 7 | 105 | 240 | 8 |
| 21. | Psixoloji konsultasiyanın həyata keçirilməsi - 1 | 5 | 75 | 180 | 6 |
| 22. | Psixoloji konsultasiyanın həyata keçirilməsi - 2 | 5 | 75 | 180 | 6 |

[7] Bu modullar təhsilalanlara ixtisasın aid olduğu iqtisadi fəaliyyət sahəsi və müvafiq bacarıq səviyyəsinə uyğun geniş səriştələr verməklə onların gələcəkdə əmək bazarında mobilliyinin artırılmasına xidmət edir.

| | Modulların siyahısı | Həftəlik auditoriya saatı | Cəmi auditoriya saatı | Cəmi saat | Kreditlərin sayı[5] |
|---|---|---|---|---|---|
| 23. | Psixodiaqnostikanın həyata keçirilməsi - 1 | 6 | 90 | 210 | 7 |
| 24. | Psixodiaqnostikanın həyata keçirilməsi - 2 | 6 | 90 | 210 | 7 |
| 25. | Psixodiaqnostikanın həyata keçirilməsi - 3 | 6 | 90 | 210 | 7 |
| 26. | Psixodiaqnostikanın həyata keçirilməsi - 4 | 6 | 90 | 210 | 7 |
| 27. | Psixodiaqnostikanın həyata keçirilməsi - 5 | 6 | 90 | 210 | 7 |
| 28. | Psixokorreksiyanın həyata keçirilməsi - 1 | 7 | 105 | 270 | 9 |
| 29. | Psixokorreksiyanın həyata keçirilməsi - 2 | 7 | 105 | 240 | 8 |
| 30. | Psixokorreksiyanın həyata keçirilməsi - 3 | 7 | 105 | 240 | 8 |
| **31.** | **Seçmə modul 1** | **7** | **105** | **270** | **9** |
| **32.** | **Seçmə modul 2** | **7** | **105** | **270** | **9** |
| **33.** | **Seçmə modul 3** | **7** | **105** | **270** | **9** |
| **34.** | **Seçmə modul 4** | **7** | **105** | **270** | **9** |
| **35.** | **Seçmə modul 5** | **7** | **105** | **270** | **9** |
| **36.** | **Seçmə modul 6** | **7** | **105** | **270** | **9** |
| | **Cəmi** | **168** | **2520** | **6300** | **210** |

**13. Modullarda olan səriştələrin spesifikasiyası:**

**10.1. Əsas səriştə modulları**

| **Azərbaycan dilində ünsiyyət** | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. İşlə bağlı ətraflı məlumatları oxuyurb anlayır və qiymətləndirir | a. Verilən tapşırıqlarla bağlı gündəlik təkrarlanan və rutin olmayan iş üçün ətraflı yazılı təlimatları dəqiqliklə izah edir;<br>b. Verilən tapşırıqla əlaqədar qrafik təlimatları (diaqram) düzgün şərh edir;<br>c. Verilən tapşırıqla əlaqədar müxtəlif mənbələrdən alınan məlumatları düzgün təhlil edir;<br>d. İş təlimatlarından istifadə edərək işin mərhələləri (addımlar), vaxt çərçivəsi, gözlənilən nəticələr və icraçıları göstərməklə fərdi iş planı hazırlayır. |

| Azərbaycan dilində ünsiyyət | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 2. İşlə bağlı vəziyyət haqqında qrup müzakirəsi aparır | a. Mürəkkəb texniki məlumatları dil normalarına və seçilmiş üsluba uyğun şəkildə çatdırır;<br>b. Danışarkən məlumatlar, rəylər və fikirləri məntiqi bir şəkildə əlaqələndirir;<br>c. Mövzuya və dinləyicilərin anlama səviyyəsinə uyğun dildən istifadə edir. |
| 3. Verilən mözuda işlə əlaqəli ətraflı mətn yazır | a. Verilən məqsədə və hədəf auditoriyaya uyğun format seçir;<br>b. Oxuculara aydın olan tərtibat və lüğətdən istifadə edir;<br>c. Mənanı qorumaq üçün dəqiq quruluş və durğu işarələrindən istifadə edir;<br>d. Mətnləri düzgün struktur, qrammatika və orfoqrafiya ilə yazır;<br>e. Verilən mövzuda işlə əlaqəli aydın və struktlaşdırılmış hesabat hazırlayır. |

| Xarici dildə ünsiyyət | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Eşitdiyi məlumatı başa düşür | a. Peşəsi ilə bağlı konkret mövzularda nisbətən mürəkkəb söhbətlər, həmçinin, texniki müzakirələrdə ifadə edilən əsas ideyaları şərh edir;<br>b. Mürəkkəb təlimatlara düzgün şəkildə riayət edir;<br>c. Standart və aydın nitqdə aparılan müzakirənin əsas arqument, yaxud ideyasının lehinə və ya əleyhinə səsləndirilən fikirlərin əsas səbəblərini müəyyən edir. |
| 2. Danışıq və müzakirələrdə iştirak edir | a. Hətta səs-küylü mühitdə belə ən ümumi mövzu ətrafında aparılan geniş müzakirələrdə effektiv şəkildə iştirak edir;<br>b. Aparılan gündəlik və təsadüfi rəsmi müzakirələrdə fəal şəkildə iştirak edir. |
| 3. Şifahi məlumat verir | a. Özünün maraq dairəsinə aid olan bir sıra mövzularda aydın və ətraflı təqdimat edir (əlavə fikir və münasib nümunələrlə öz fikirlərini genişləndirmək və əsaslandırmaq şərti ilə). |
| 4. Oxuduğu məlumatı başa düşür | a. Müvafiq istinad mənbələrindən (məsələn, lüğətlər) istifadə etməklə müxtəlif mətnə və məqsədlərə uyğun üslub və sürətlə müstəqil oxuyur; |

| Xarici dildə ünsiyyət | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| | b. Mürəkkəb hissələri yenidən təkrar oxumaq şərti ilə öz sahəsinə aid olan uzun və mürəkkəb təlimatlar, o cümlədən, şərtlər və xəbərdarlıqları şərh edir. |
| 5. Məlumatları yazılı şəkildə çatdırır | a. Hər hansı müzakirə mövzusu barəsində inşa və ya hesabatlar yazır (burada konkret fikirlərə lehinə və ya əleyhinə səbəblər göstərərək müxtəlif versiyaların üstün və çatışmayan cəhətlərini izah etməklə);<br>b. Müvafiq ifadələrdən istifadə etməklə aktual mövzularda strukturlu peşəkar məktub, qeyd və elektron məktublar yazır. |

| Riyazi hesablama | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. İşlə bağlı riyazi məlumatları müəyyən edir və şərh edir | a. İşlə bağlı qrafik formada təqdim edilmiş məlumatların aktuallığını izah edir;<br>b. İşlə bağlı dövri məlumatları (məsələn aralıq hesabatları) toplamaqla onları müvafiq qrafik formada təqdim edir;<br>c. Verilən qərarları əsaslandırmaq üçün bir sıra mənbələrdən proqnozlaşdırıla bilən məlumat kateqoriyalarını müqayisə edir (məsələn, materialların haradan alınması ilə bağlı qərar vermək). |
| 2. Problemləri həll etmək üçün rəqəmlərlə işləmə bacarığından istifadə edir | a. Çoxmərhələli gündəlik və bəzi təsadüfi problemlərin həlli (məsələn, qiymət artımlarından sonra büdcəni necə balanslaşdırmaq) üçün müvafiq riyazi əməlləri yerinə yetirir;<br>b. İş yerində iki hissəli gündəlik problemlərin həlli üçün faiz, nisbət və ya kəsrlərdən istifadə etməklə müvafiq riyazi əməlləri yerinə yetirir. |
| 3. Problemləri həll etmək üçün ölçmə və həndəsə bacarıqlarından istifadə edir | a. İşlə bağlı gündəlik problemlərin həllində məkandan düzgün istifadəni planlaşdırır (məsələn, təyin edilmiş sayda simmetrik formada olan obyektlərin saxlanması üçün tələb olunan məkanı hesablamaq);<br>b. Çox sayda dövri tapşırıqları tamamlamaq və silsilə məhsullar hazırlamaq üçün tələb olunan materialların sayı, yaxud lazım olan vaxtı hesablamaq üçün məhdud sayda riyazi düsturlardan istifadə edir. |
| 4. Riyazi üsul və əməllərdən müvafiq qaydada istifadə edir | a. Göndəlik işdə hesablamalar aparmaq üçün bir sıra metodlardan (zehin, kağız və qələm və ya kalkulyator, yaxud kompüterin kalkulyator funksiyası) istifadə edir; |

| Riyazi hesablama | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| | b. İşlə bağlı xarakterik məqamları (məsələn, nağd pul axınları, fəaliyyətlərin mərhələlərə bölünməsi və onların tamamlanması ilə bağlı irəliləyişləri) monitorinq etmək üçün elektron cədvəllər formasında uçot sənədləri yaradır. |
| 5. Riyazi məlumatları ötürmək üçün müvafiq dil və işarələrdən istifadə edir | a. Yazıda riyazi simvollardan istifadə edir;<br>b. Apardığı hesablamaları təsvir etmək və məlumatlarla bağlı yazışmalar aparmaq üçün qeyri-formal və sadə formal riyazi terminlərdən istifadə edir. |
| 6. Riyazi məlumatları müvafiq formatlarda təqdim edir | a. Fəaliyyətində gündəlik məsələlərə dair məlumatların toplanması nəticəsində əldə edilmiş faktları təqdim etmək üçün müvafiq riyazi formanı (məsələn, qrafik, cədvəl və elektron cədvəllər) seçir. |

| İnformasiya və kommunikasiya texnologiyaları (İKT) | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Məlumatları axtarır və qiymətləndirir | a. İstər gündəlik, istərsə də digər məsələlərlə əlaqədar "Onlayn" rejimdə axtarış aparır;<br>b. Əldə etdiyi məlumatların etibarlılıq və əlverişliliyini dəyərləndirmək üçün lazım olan tədbirləri müəyyən edir;<br>c. Öz tələblərini qarşılamaq üçün ən uyğun məlumat mənbəyini (mənbələrini) seçir. |
| 2. İKT-dən istifadə edərək məzmun tərtib edir | a. Fəaliyyəti sahəsində tələb olunan məzmun yaratmaq üçün İKT-nin imkanlarından düzgün istifadə edir;<br>b. Fəaliyyəti ilə əlaqədar gündəlik və digər məsələlər barədə məzmun yaratmaq üçün bir sıra münasib rəqəmsal formatlardan istifadə edir;<br>c. İşlə bağlı məzmun yaratmaqda öz həmkarlarına kömək edir. |
| 3. Məlumatları yaddaşda saxlayır və istifadə edir | a. Məlumat və məzmunun müvafiq qaydada saxlanması və tapılması üçün sistem yaradaraq bu sistemdən istifadə edir;<br>b. Yaddaşda saxlanmalı olan məlumatlarla bağlı hər hansı etik və ya hüquqi məhdudiyyətləri müəyyən edir;<br>c. Sənədlərin qeydiyyatı sistemini məlumat və məzmunun tapılaraq çıxarılması baxımından düzgün idarə edir. |
| 4. Məlumatları bölüşür və başqaları ilə əməkdaşlıq edir | a. İş mühitində həmkarları və ya digər şəxslərlə məlumatları paylaşan zaman istifadə üçün fərqli formatlar arasında ən uyğun olanını seçir; |

| İnformasiya və kommunikasiya texnologiyaları (İKT) | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| | b. İş mühitində mesajlar və ya digər məzmunu göndərən, yaxud cavablandıran zaman riayət ediləcək normaları (məsələn ünvanın formaları, üslub, format və s.) müəyyən edir;<br>c. İş mühitində məlumatların əldə edilməsi ilə bağlı mesajlar və ya sorğuları düzgün formada göndərir və cavablandırır. |
| 5. Özünə aid məlumatları mühafizə edir | a. İKT-dən istifadə edərək rəqəmsal kommunikasiya aparmaqda olan şəxslərlə bağlı potensial riskləri müəyyən edir;<br>b. Rəqəmsal mühitdə özü və ona məxsus məlumatların təhlükəsizliyini təmin etmək üçün görə biləcəyi tədbirləri sadalayır. |
| 6. Başqalarının hüquqlarını bilir və onlara hörmət edir | a. Məlumatların rəqəmsal mühitə yerləşdirilməsi səbəbindən öz müdiriyyəti də daxil olunmaqla başqaları üçün yaranan potensial riskləri müəyyən edir;<br>b. Rəqəmsal mühitdə istər işlə bağlı, istərsə də şəxsi kommunikasiya aparan zaman başqalarının hüquqlarını qorumaq üçün atılmalı olan addımları təsvir edir.<br>c. Həmkarlarına rəqəmsal mühitdə başqalarının hüquqlarının tanınması və onlara hörmət edilməsinin əhəmiyyətini izah edir. |
| 7. İKT ilə bağlı problemləri həll edir | a. Cihaz və ya tətbiqin tapşırığı nə üçün icra etmədiyini müəyyən etmək məqsədi ilə sadə tədbirlər görür;<br>b. Öz səriştəsi və ya səlahiyyətləri çərçivəsində iş mühitində İKT ilə bağlı sadə problemlərin həlli üçün tədbir görür;<br>c. Nisbətən mürəkkəb problemləri həll etmək üçün mövcud dəstəkdən yararlanır. |

| Peşə etikası və sosial həyat bacarıqları | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Peşə etikası prinsiplərinə hörmət edir | a. Qlobal biznesdə mənəvi qərar qəbuletmə prinsiplərini anladığını nümayiş etdirir;<br>b. Ümumi etik prinsipləri fərdi və qrup işlərində müəyyən hallar və ya təcrübələrə tətbiq edir;<br>c. Ölkənin iqtisadi qanunvericiliyinin ticarət, peşələr və təşkilatlara mühüm təsir yollarını qiymətləndirir;<br>d. Özü və komandanın davranışlarını peşə etikası baxımından təhlil edir. |
| 2. Vaxtdan səmərəli istifadə edir | a. Özü və hamkarlarının vaxtını israf edən fasilələr və hər hansı başqa məsələlərlə mübarizə aparmaq üçün müvafiq strategiyalar qəbul edir; |

| Peşə etikası və sosial həyat bacarıqları | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| | b. Öz işi və grup işini vaxtında yerinə yetirmək üçün praktiki metodlardan istifadə edir;<br>c. İşi daha effektiv təşkil etməklə müəyyən fəaliyyətlərə sərf edilən vaxtı azaldır;<br>d. Peşə məqsədləri və şəxsi vaxt arasında tarazlıq əldə edir. |
| 3. Qrupda effektiv işləyir | a. Komanda daxili prosesləri (giriş, keçid və çıxış) müəyyən edir;<br>b. Uğurlu komanda təcrübəsinin xüsusiyyətlərini təsvir edir;<br>c. Müxtəlif sahələrdən olan şəxslərin birləşdiyi komandalarda effektiv komanda üzvlüyünü nümayiş etdirir;<br>d. Münaqişələri effektiv həll edir. |
| 4. İş davranışını təhlil edir | a. Boşluqları müəyyən etmək və həll yollarını tapmaq üçün komanda üzvləri ilə işgüzar davranış problemlərini müzakirə edir;<br>b. Müxtəlif iş mühitlərində nümunəvi işgüzar davranış nümayiş etdirir;<br>c. Digər şəxsin problemləri, fikirləri, düşüncələri və təcrübələrinə anlayış nümayiş etdirir. |

| Sahibkarlıq | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Yeni həll yolları tələb edən çətin tapşırıqları müəyyən edir | a. Özünün maraq dairəsində olan sahədə potensial təkmilləşmə və ya innovasiya imkanlarını dəyərləndirmək üçün təhlil aparır. |
| 2. Yeni ideyaları müəyyən edir və formalaşdırır | a. Təkbaşına, yaxud komandanın bir üzvü kimi təkmilləşmə və ya innovasiyaları özünün maraq dairəsinə tətbiq etmək üçün bir sıra ideyalar irəli sürür;<br>b. Təkmilləşmə və ya innovasiyaların tətbiqi üçün irəli sürülmüş ideyalar toplusunu qiymətləndirməklə hər birinin üstün və zəif cəhətlərini müəyyən edir;<br>c. Müəyyən edilmiş hər bir ideya ilə bağlı potensial maraqlı tərəfləri (bunlar təkmilləşmə fəaliyyətlərinə təsir edə bilən, bu ideyalarda maraqlı olan, yaxud onun təsirinə məruz qalan şəxslərdir) müəyyən edir. |
| 3. Yeni ideyaları həyata keçirmək üçün lazım olan resursları müəyyən edir | a. Özünün maraq dairəsinə aid sahədə təkmilləşmə və ya innovasiya ilə bağlı hər hansı ideyanı reallaşdırmaq üçün tələb olunan resursları (məsələn, materiallar, avadanlıqlar, insan resursları və vaxt) müəyyən edir;<br>b. Yeni ideyanın həyata keçirilməsi prosesində müəyyən etdiyi resurslardan necə istifadə ediləcəyini təsvir edir. |

| Sahibkarlıq | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 4. Yeni ideyanın reallaşdırılması üçün tələb olunan büdcəni planlaşdırır | a. Özünün maraq dairəsinə aid sahədə innovasiya və təkmilləşmə ilə bağlı ideyanın həyata keçirilməsi zamanı xərc tələb edən sahələri müəyyən edir. |
| 5. Yeni ideyanın həyata keçirilməsini planlaşdırır | a. Özünün yeni ideyasını həyata keçirmək üçün başqasının köməyi ilə tələb olunan resurslar və xərc tələb edən sahələri göstərməklə ümumi plan hazırlayır. |
| 6. Müstəqil işləyir | a. Dövri və digər iş tapşırıqlarını müstəqil şəkildə effektiv həyata keçirir;<br>b. Vaxt və resurslardan maksimum düzgün istifadəni təmin etmək üçün gündəlik fəaliyyətlərini prioritetləşdirir;<br>c. Öz fəaliyyətinin təkmilləşdirilməsi yollarını müəyyən etmək üçün təşəbbüs göstərir;<br>d. Fəaliyyətlərində dəyişikliklər edən zaman öz səlahiyyətlərindəki məhdudiyyətləri müəyyən edir və lazım olan hallarda müvafiq icazə alır. |
| 7. Komandanın bir hissəsi olaraq effektiv işləyir | a. Komanda üzvü olaraq effektiv işləyir;<br>b. Çox mürəkkəb olmayan olan komanda tapşırıqlarının icrasına nəzarət edir. |

| Öyrənmə üsullarına yiyələnmə | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Effektiv təlim strategiyaları hazırlayır | a. Sistemli və sistemsiz öyrənmə prosesində öz təhsilinə görə cavabdehlik daşıyır;<br>b. Səhvlərdən öyrənmək potensialını dərk edir;<br>c. Təlim hədəflərinə nail olmaq üçün lazım gəldiyi hallarda özünün ənənəvi yanaşmalarını təhsilinə uyğunlaşdırır;<br>d. Təhsilini artırmaq üçün bir sıra metodlardan (məsələn, nəticələr çıxarmaq və həmkarlarına öyrətmək) istifadə edir. |
| 2. Özünəməxsus təlim təcrübələri və təlim istəklərini müəyyən edir | a. Təhsilalan olaraq fəaliyyəti ilə bağlı kontekstdə əsas güclü və zəif cəhətlərinin təhlilini aparmaqla zəif cəhətləri necə aradan qaldırmaq lazım olduğunu müəyyən edir;<br>b. Özünün üstünlük verdiyi təlim metodlarının effektivliyini dəyərləndirir;<br>c. Özünün təlim strategiyalarını daha təsirli etmək üçün adaptasiya və ya əhatə dairəsini genişləndirməyin yollarını müəyyən edir;<br>d. Komanda üzvlərinin təlim fəaliyyətlərini daha obyektiv təsəvvür etmələri və təlim ehtiyaclarını müəyyən etmələrinə yardım edir. |

| Öyrənmə üsullarına yiyələnmə | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 3. Özünün təlim ehtiyaclarını müəyyən edir və peşəkar inkişafını planlaşdırır | a. Karyera baxımından (və ya şəxsi inkişaf baxımdan) mümkün təlim hədəfləri və onların əldə edilməsi üçün mövcud olan potensial təlim yollarını müəyyən edir;<br>b. Karyera və ya şəxsi inkişaf hədəfləri ilə bağlı olan təlim məqsədlərini prioritetləşdirir;<br>c. Təlim məqsədlərinə ən yaxşı formada nail olmaq baxımından düzgün qərar vermək üçün müvafiq məlumatları axtarır;<br>d. Qısa və uzunmüddətli təlim hədəfləri, tələb olunan vaxt və resursları, o cümlədən, bu hədəflərə nail olmaq üçün tələb olunan tədbirləri göstərməklə təlim planı hazırlayır. |

| Azərbaycan Respublikası qanunvericiliyinin əsasları | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Hüququn mənbələrini müəyyən edir | a. Mülki hüququn mənbələri və normalarını dəqiq müəyyən edir;<br>b. İnzibati hüququn mənbələri və normalarını dəqiq müəyyən edir;<br>c. Əmək hüququnun mənbələri və normalarını dəqiq müəyyən edir;<br>d. Ekologiya hüququnun mənbələri və normalarını dəqiq müəyyən edir;<br>e. Cinayət hüququnun mənbələri və normalarını dəqiq müəyyən edir. |
| 2. Mürəkkəb mübahisəni qanunvericiliyə uyğun həll edir | a. Mübahisəli kompleks məsələni həll etmək üçün qanunvericilikdə müvafiq şərtləri tapır;<br>b. Mübahisəli kompleks məsələni həll etmək üçün müvafiq orqanları müəyyən edir;<br>c. Mübahisəli kompleks məsələni həll etmək üçün müvafiq hüquqi orqanlara müraciət edir. |

10.2. Ümumi səriştələr (əmək bazarında rəqabətədavamlı olmağa imkan yaradan səriştələr peşəyə görə səriştələr arta və ya azala bilər).

<table>
<tr><th colspan="2">Sağlamlıq və əməyin mühafizəsi<br>Sağlamlıq və əməyin mühafizəsi üzrə səriştələr zəruridir</th></tr>
<tr><th>Təlim (öyrənmə) nəticələri</th><th>Qiymətləndirmə meyarları</th></tr>
<tr><td colspan="2">Sağlamlıq və təhlükəsizliyin qorunması</td></tr>
<tr><td>1. Fərdi sağlamlığı və təhlükəsizliyini qoruyur</td><td>a. İş yeri və avadanlıqların təhlükəsiz və zərərsiz olmasını yoxlayır və sağlamlıq və təhlükəsizlik üzrə hüquqi-normativ tələblərə uyğunluğunu təmin edir;<br>b. Şəraitə, ətraf mühitə və fəaliyyətlərə uyğun olaraq düzgün fərdi mühafizə paltarını geyinir.</td></tr>
<tr><td>2. Təhlükəsizlik təlimatları, nişanları və göstərişlərinə riayət edir</td><td>a. Təlimat, nişan və göstərişlərə düzgün əməl edilməsini nümayiş etdirir;<br>b. Digər şəxslərin təlimat, nişan və göstərişlərə əməl edilməsi ilə bağlı təlimatlandırılması qaydalarını təsvir edir.</td></tr>
<tr><td>3. Sağlamlıq və əməyin mühafizəsi məsələləri ilə bağlı hesabat verir</td><td>a. Hüquqi və təşkilati tələblərə uyğun olaraq sağlamlıq və əməyin mühafizəsi məsələləri haqqında effektiv hesabat verir, o cümlədən, müvafiq şəxsləri məlumatlandırır, sağlamlıq və təhlükəsizlik ilə bağlı qeydiyyatı tamamlayır;<br>b. Həmkarlarının sağlamlıq və əməyin mühafizəsi məsələləri haqqında effektiv hesabat verə bilməsinə dəstək verir.</td></tr>
<tr><td colspan="2">İlk yardım</td></tr>
<tr><td>1. İlk yardım hadisələrini idarə edir</td><td>a. Hadisə baş verən zaman ilkin qiymətləndirmə prosesini düzgün şəkildə nümayiş etdirir;<br>b. Müalicə prioritetlərinin müəyyən edilməsi prosesini düzgün izah edir;<br>c. Bədbəxt hadisədən zərər çəkən, ilk yardım göstərən və təhlükə ilə üzləşmə ehtimalı olan digər şəxslərin təhlükəsizliyini təmin etmək üçün görülməli olan tədbirləri aydın şəkildə təsvir edir;<br>d. Kömək çağırma və məlumat ötürmə proseslərini təsvir edir.</td></tr>
<tr><td>2. İlk yardım prosedurlarını həyata keçirir</td><td>a. Bədbəxt hadisədən zərər çəkən və nəfəs almayan şəxsə ürək masajı və süni nəfəs vermə prosedurunu həyata keçirir;<br>b. Bədbəxt hadisədən zərər çəkən və nəfəs alan şəxsləri bərpa vəziyyətində düzgün yerləşdirir;<br>c. Kəskin qanaxmanın qarşısını düzgün şəkildə alır;<br>d. Sümük sınıqları, çıxıqları və onurğa sütununun zədələnmə halları zamanı düzgün yardım göstərir;<br>e. Kəskin istilik və elektrik yanıqları zamanı düzgün yardım göstərir;<br>f. Kimyəvi yanıqlar zamanı düzgün yardım göstərir.</td></tr>
<tr><td colspan="2">Yanğından mühafizə</td></tr>
</table>

| | |
|---|---|
| 1. Yanğından mühafizə sahəsində həyata keçirilməli olan prosedurları izah edir | a. Yanğınla mübarizə aparmaq üçün yanğın çıxışları, yanğınsöndürən və su kranlarını düzgün müəyyən edir;<br>b. Real həyatdan götürülmüş misallar əsasında yanğın üçbucağını təsvir edir;<br>c. Yanğın siqnalı, evakuasiya və xilasetmə prosedurunu düzgün şəkildə təsvir edir;<br>d. Mövcud təşkilati tələblərə cavab vermək baxımından yanğın zamanı qəbul edilməli olan ümumi prosedurları düzgün izah edir. |
| 2. Yanğınsöndürəndən istifadə edir | a. Verilmiş yanğın növü ilə mübarizə aparmaq üçün uyğun yanğınsöndürəni seçir;<br>b. Seçilmiş yanğınsöndürənin düzgün istifadəsi qaydalarını təsvir edir (əhatə olunanlar: Yanğınsöndürən – su, köpük, $CO_2$, quru toz və adyal). |
| 3. Yanğının qarşısının alınması və yanğınla mübarizə sahəsində sadə tədbirlər ilə bağlı həmkarlarını təlimatlandırır | a. Həmkarlarına ehtiyat çıxışları, yanğınsöndürənlər, su kranları və şlanqların yerlərinin müəyyən edilməsi ilə bağlı təlimatlar verir;<br>b. Həmkarlarına ehtiyat çıxışları, yanğınsöndürənlər, su kranları və şlanqlara sərbəst çıxışın təmin edilməsi üzrə təşkilati prosedurlarla bağlı təlimatlar verir. |

| **Planlaşdırma** | |
|---|---|
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| Müxtəlif vəzifə öhdəliklərini (struktur bölmələrin fəaliyyətini) planlaşdırır və təqdim edir | a. Hər bir vəzifə öhdəliyi (struktur bölmə) üçün mövcud resursların istifadəsini təhlil edir;<br>b. Resurslardan səmərəli istifadəni təmin etmək üçün təşkilat daxilində resurslardan ümumi istifadənin təkmilləşdirilməsi, o cümlədən, büdcə nəzarəti və gözlənilməz xərclərə dair planlar hazırlayır;<br>c. Məsləhətləşmələr aparmaq üçün planı müvafiq işçilərə aydın və təfərrüatlı şəkildə təqdim edir. |
| Strateji plana uyğun olaraq planlar hazırlayır və onlara nəzarət edir | a. Strateji plan əsasında təşkilat üçün məqsədlər müəyyən edir;<br>b. Məqsədlərin əldə edilməsi üçün lazım olan dəyişiklikləri planlaşdırır;<br>c. Planları müvafiq maraqlı tərəflərə aydın və təfərrüatlı şəkildə təqdim edir;<br>d. Planların strateji plana uyğun həyata keçirilməsinə nəzarət edir. |

| **Hesabatvermə və sənədləşdirmə** |
|---|

| Təlim (öyrənmə) nəticələri | Qiymətləndirmə meyarları |
|---|---|
| 1. Öz işi haqqında hesabat verir | a. Öz iş planları haqqında yazılı formada effektiv hesabat verir;<br>b. Öz işinin nəticələri haqqında elektron formada effektiv hesabat verir. |
| 2. Struktur bölmənin nəticələri haqqında hesabat verir | a. Struktur bölmənin planları haqqında effektiv hesabat verir;<br>b. Struktur bölmənin fəaliyyətinin dövri nəticələri barədə effektiv hesabat verir. |
| 3. Struktur bölmə daxilində hesabatlılığı təşkil edir | a. Struktur bölmə daxilində hesabatvermənin məqsədlərini müəyyən edir;<br>b. Hesabat vermək üçün effektiv sistemlərin yaradılmasını dəstəkləyir;<br>c. Hesabatvermə sistemlərinin istifadəsi və tələbləri barədə işçi heyətinə effektiv məlumat verir;<br>d. Hesabatvermə sistemlərini mütəmadi olaraq qiymətləndirir;<br>e. Hesabatların adları, formaları, dövriliyi, vaxtı və ünvanını müəyyən edir;<br>f. Təşkilata effektiv rəy və təkliflər verir. |

| **Mənəvi, psixoloji və fiziki sağlamlığın qorunması** | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Mənəvi-psixoloji sağlamlıqla bağlı valeologiyanın nəzəri və praktik əsaslarını anlayır | a. Valeoloqiyanın məqsəd və vəzifələrini izah edir;<br>b. İnsan şüurunun inkişaf mərhələlərini tibbi, fizioloji və bioloji baxımdan şərh edir;<br>c. İnsanın psixoloji aləmini kamilləşdirən mənəvi keyfiyyət-lərin şərhini verir;<br>d. Şəxsiyyətin psixoloji sağlamlığında mənəvi sistemin (dəyər, ideal, inam, əqidə və.s.) rolunu izah edir;<br>e. İnsanın mənəvi-psixoloji sağlamlığında "psixi enerji"nin rolunu izah edir.<br>f. "İnsan-ətraf mühit" sisteminin qarşılıqlı əlaqəsinin izahını verir;<br>g. Mənəvi-psixoloji sağlamlıqla fizioloji sağlamlığın qarşılıqlı əlaqəsini əsaslandırır; |

| | |
|---|---|
| | h. Sağlam şəxsiyyətin və sağlam cəmiyyətin formalaşmasında təhsil sisteminin rolunu əsaslandırır. |
| 2. Peşə fəaliyyətində valeoloji bilikləri tətbiq edir | a. Təhsilalanların mənəvi-psixoloji sağlamlığının qorunmasında təhsil iştirakçıları ilə aparılan<br>b. işin metodlarını şərh edir;<br>c. Mənəvi psixoloji inkişafla bağlı təhsilalanlara özünütərbiyə yollarını izah edir;<br>d. Təhsil iştirakçılarına valeoloji biliklərdən istifadə yollarını öyrədir. |
| 3. Uşağın anatomik və fizioloji xüsusiyyətlərini anlamağı nümayiş edir | a. Uşağın anatomik bədən quruluşunu izah edir;<br>b. Uşaq orqanizmində gedən fizioloji prosesləri təsvir edir;<br>c. Fizioloji proseslərin uşağın fiziki və psixi inkişafina təsirini izah edir;<br>d. Uşaqda baş verə biləcək pozulmaların qarşısını alma qaydalarını izah edir;<br>e. Uşaq orqanizminin inkişafına təsir edən amilləri fərqləndirir. |
| 4. Uşaq xəstəliklərinin ilkin əlamətlərini müəyyən edir | a. Xəstəliklərin ümumi əlamətlərini izah edir;<br>b. Xəstəliklər zamanı profilaktik tədbirlərin həyata keçirilməsi haqqında məlumat verir;<br>c. Cəmiyyətdə sosioloji bəlaya çevrilən zərərli vərdişləri izah edir. |

| **Pedaqoji prosesin psixoloji əsaslarla təşkili** | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Pedaqogikanın tədrisinin əhəmiyyətini anlayır | a. Təhsil, təlim, tədris anlayışlarını fərqləndirir;<br>b. Şəxsiyyətin inkişafına və formalaşmasına təsir edən amilləri izah edir. |
| 2. Təlimin təşkilinin psixoloji məsələlərini anlayır | a. Təlimin psixoloji məzmununu şərh edir;<br>b. Təlim prosesinin psixoloji quruluşunu modelləşdirir;<br>c. Təlimin əsas prinsiplərini izah edir;<br>d. Təlim üsullarını təsnifatlaşdırır;<br>e. Təlimin təşkil formalarının şərhini verir;<br>f. Təlim nəticələrinin qiymətləndirilməsi qaydalarını izah edir;<br>g. Tədris prosesinin psixoloji təhlilini aparır;<br>h. Tədris prosesinin təhlilinin nəticələri əsasında yekun rəy hazırlayır;<br>i. Yeni təlim texnologiyalarının işlənməsi yollarını izah edir. |

| | |
|---|---|
| 3. Tərbiyə işini təşkil edir | a. Tərbiyə prosesinə təsir göstərən əsas amilləri və prinsipləri izah edir;<br>b. Tərbiyə tiplərini şərh edir;<br>c. Tərbiyənin təşkili formalarını və metodları təsvir edir;<br>d. Müasir texnologiyaları tərbiyə prosesinə tətbiq edir. |
| 4. Pedaqoji fəaliyyətin xüsusiyyətlərini anlayır | a. Pedaqoji fəaliyyətin psixoloji xüsusiyyətlərini izah edir;<br>b. Pedaqoji fəaliyyətin iştirakçılarının yaş və fərdi xüsusiyyətlərini təsvir edir;<br>c. Pedaqoqların özünü peşəkar kimi dərketməsinə qoyulan tələbləri izah edir;<br>d. Pedaqoji ünsiyyətin məzmununu izah edir;<br>e. Pedaqoji ünsiyyət tiplərini təsnifatlaşdırır;<br>f. Pedaqoji situasiyalarda yaranan münaqişələrin həlli yollarını təsvir edir. |
| 5. Təhsil sistemində psixoloji xidmətin əhəmiyyətini anlayır | a. Təhsil sistemində psixoloji xidmətin məqsəd və vəzifələrini izah edir;<br>b. Təhsil psixoloqunun funksiyasını izah edir;<br>c. Təhsil prosesində psixoloqun həll etməli olduğu məsələləri müəyyən edir;<br>d. Təhsil prosesi iştirakçılarında təzahür edən kliniki problemlərin xüsusiyyətlərini şərh edir;<br>e. Təhsilalanların fərdi inkişafdakı ləngimə və pozuntuları müəyyən edir;<br>f. Fərdi inkişafda problemləri olan təhsilalanların xüsusi təlim ehtiyaclarını təsvir edir;<br>g. “Risk qrupuna” aid olan təhsilalanları müəyyənləşdirir;<br>h. İnkişafı qabaqlayan istedadlı təhsilalanların əsas xüsusiyyətlərini müəyyən edir;<br>i. İstedadlı təhsilalanların təlim ehtiyaclarını təsvir edir;<br>j. Təhsilalanların yaş xüsusiyyətlərinə uyğun inkişafı ilə bağlı proqram hazırlayır. |
| 6. Təhsil sistemini idarə edir | a. Məktəbin idarəetmə sisteminin modelləşdirir;<br>b. Məktəbdə rəhbərlik üslublarını şərh edir.<br>c. Məktəbin idarəetmə sistemində psixoloqun yerini müəyyənləşdirir;<br>d. Məktəbdaxili nəzarətin təşkilində təhsil menecerinin rolunu izah edir. |

| | |
|---|---|
| 7. İnklüziv təhsili təşkil edir | a. İnklüziv təhsildə differensial yanaşmanın mahiyyətini müəyyənləşdirir;<br>b. İnklüziya, diskriminasiya və inteqrasiyanı izah edir;<br>c. İnklüziv təhsil prosesində akkomodasiya haqqında təqdimat edir;<br>d. İnklüziv təhsildə modifikasiyalardan istifadə yollarını şərh edir;<br>e. Fərdi tədris planını işləyib hazırlayır;<br>f. İnklüziv təhsildə müşahidə və qiymətləndirmə prosesini izah edir. |

| **Gündəlik fəaliyyətdə tibbi-psixoloji biliklərin tətbiqi** | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Ali sinir sisteminin quruluşunu anlayır | a. Sinir sisteminin quruluşunu şərh edir;<br>b. Orqanizmin digər sistemləri ilə sinir sisteminin əlaqəsini izah edir;<br>c. Sinir sisteminin psixi fəaliyyətdəki rolunu əsaslandırır. |
| 2. Psixofizioloji proseslərin xüsusiyyətlərini anlayır | a. Psixo-fizioloji sistemin quruluşunu izah edir;<br>b. Psixi proseslərin fizioloji əsaslarını əlaqələndirir;<br>c. Fizioloji problemlərin psixoloji fəaliyyətdə yarada biləçək çətinliklərini şərh edir;<br>d. Sinir sisteminin fizioloji vəziyyətinin yaratdığı psixoloji təzahürləri müəyyən edir. |
| 3. Kliniki problemlərin həllini həyata keçirir | a. Kliniki psixoloji problemləri təsnifatlaşdırır;<br>b. Kliniki problemlərin psixoloji təzahürlərini müəyyən edir;<br>c. Müvafiq kliniki problemin həlli yollarını izah edir;<br>d. Problemlə bağlı müvafiq mütəxəssislərlə əməkdaşlıq yollarını təsvir edir. |

| **Sosial qruplarda iş** | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Sosial qruplarla psixoloji təlimlərin mahiyyətini anlayır | a. Sosial-psixoloji təlimin təşkilinin nəzəri və metodiki əsaslarını izah edir;<br>b. Təlim prosesində fərd, cüt və qruplarla aparılan psixoloji işin xüsusiyyətlərini təsvir edir; |

| | |
|---|---|
| | c. Müxtəlif problemlərlə bağlı təhsilalanlarla keçiriləcək sosial psixoloji təlimlər haqqında məlumat verir;<br>d. Tematik mövzular əsasında təhsilverənlərlə (rəhbər, pedaqoq, valideyn) keçiriləck təlimlərin istiqamətini müəyyənləşdirir;<br>e. Həmkarları üçün ehtiyaclarına uyğun keçiriləçək təlim haqqında məlumat verir. |
| 2. Sosial qruplarla psixoloji təlimləri həyata keçirir | a. Təhsil prosesi iştirakçılarının ehtiyaclarına uyğun mövzularda sosial-psixoloji təlim proqramları tərtib edir;<br>b. Müxtəlif tipli psixoloji konsiliumlar təşkil edir;<br>c. Psixoloji təlimləri müasir texnologiyalarla həyata keçirir;<br>d. Sosial-psixoloji təlim proqramlarının səmərəlilik səviyyəsini müəyyən edilmiş meyarlar əsasında dəyərləndirir. |

| **Psixologiyanın əsaslarının və sahələrinin öyrənilməsi** | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Psixologiyanın əsaslarını anlayır | a. Psixika və şüurun məzmununu izah edir;<br>b. Psixi hadisələri təsnifatlaşdırır (proses, hal, xassə);<br>c. Fərdiyyət, şəxsiyyət və subyektin quruluşunu izah edir;<br>d. Fəaliyyət, ünsiyyət və davranışın psixoloji mahiyyətini şərh edir;<br>e. Psixoloji inkişafın yaş dövrlərini təsnifatlaşdırır;<br>f. Böhran dövrlərin xüsusiyyətlərini izah edir;<br>g. Sosial qrupların məzmununu şərh edir;<br>h. Sosial qruplarla işin təşkili yollarını təsvir edir. |
| 2. Psixologiyanın sahələri üzrə məqsəd və vəzifələrini əsaslandırır | a. Psixologiyanın müvafiq sahələrini (pedaqoji, yaş və inkişaf, uşaq, sosial, əmək, hüquq və idman) kliniki təsnifatlaşdırır;<br>b. Psixologiyanın sahələrinin predmetini izah edir;<br>c. Təhsil prosesinin təkmilləşdirilməsi və optimallaşdırılması üçün psixologiyanın sahələri üzrə biliklərin əhəmiyyətini əsaslandırır. |

| **Mövcud vəziyyət ilə bağlı şəxsin yaxınları ilə əməkdaşlığın təşkili** | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |

| | |
|---|---|
| 1. Şəxsin mövcud vəziyyəti barədə yaxınlarına məlumat verir | a. Şəxsin yaxınları ilə əlaqələr yaradır;<br>b. Şəxsin mövcud vəziyyəti ilə bağlı hesabat/rəy hazırlayır;<br>c. Şəxsin yaxınları ilə görüşlər keçirir;<br>d. Şəxsin mövcud vəziyyəti ilə bağlı hesabatda/rəydə yazılanları izah edir;<br>e. Şəxsin mövcud vəziyyəti ilə bağlı ev/ ailə şəraitində görüləcək işləri izah edir. |
| 2. Ev şəraitində şəxsin mövcud vəziyyətinə mütəmadi nəzarət edir | a. Ev/ ailə şəraitində görülən işlərin gedişatına mütəmadi nəzarət edir;<br>b. Əldə olunan nəticələri təhlil edir;<br>c. Ehtiyac yaranarsa şəxsin mövcud vəziyyəti ilə bağlı əlavə tapşırıqlar verir;<br>d. Gördüyü işlərə dair hesabat hazırlayır. |

### 10.3. Xüsusi/spesifik səriştə modulları

| **Psixoloji maarifləndirmə və profilaktika işlərinin aparılması** | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Psixoloji maarifləndirmə işlərini aparır | a. Maarifləndirmə və təşviqat işlərinin forma və strategiyalarını təsvir edir;<br>b. Müasir psixoloji bilikləri təhlil edir;<br>c. Yaşlar üzrə maarifləndirmə və təşviqat materialları tərtib edir;<br>d. Böhran dövrlərində, yeni şəraitə uyğunlaşma müddətində pedaqoq, valideyn (qəyyum), tərbiyəçi və d. səlahiyyətli şəxslərə təhsilalanlara psixoloji dəstək vermək üçün tövsiyələr verir;<br>e. Müvafiq situasiyalarda şəxsiyyətin inkişafını ləngidən neqativ təsirinin qarşısını almaq üçün təhsilverənləri məlumatlandırır. |
| 2. Psixoloji profilaktika işlərini aparır | a. Psixoloji problemlərin qarşısını almaq üçün yaş mərhələləri üzrə qabaqlayıcı tədbirlər həyata keçirir;<br>b. Yaradıcı və istedadlı uşaqların xüsusiyyətlərinə uyğun planları tərtib edir;<br>c. Valideyn və pedaqoqlara təhsilalanların psixoloji sağlamlığının qorunması məqsədi ilə onların hüquqları (insan, uşaq hüquqları) haqqında müvafiq məlumatlar verir;<br>d. Psixoloji problemlərin qarşısını almaq üçün qabaqlayıcı işləri “risk qrupuna” aid olan uşaqların ehtiyaclarına uyğun olaraq planlaşdırır; |

| Psixoloji maarifləndirmə və profilaktika işlərinin aparılması | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| | e. "Risk qrupuna" aid olan istedadlı uşaqlar üçün planlaşdırılan fəaliyyətlərin reallaşdırılması üçün psixoloji tövsiyələr hazırlayır;<br>f. Psixoloji problemlərin qarşısını almaq üçün pedaqoji heyətlə konsiliumlar təşkil edir. |

| Psixoloji konsultasiyanın həyata keçirilməsi | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Psixoloji konsultasiya prosesinə hazırlıq görür | a. Psixoloji konsultasiyanın mövzusunu müəyyən edir;<br>b. Psixoloji konsultasiyanın prinsiplərini ayırd edir;<br>c. Psixoloji konultasiya prosesində istifadə edilən metod və texnikaları seçir;<br>d. Psixoloji konsultasiyanın növləri və təşkili formaları haqqında məlumat verir;<br>e. Konsultant-psixoloqun peşə səriştələrini təsvir edir. |
| 2. Konsultasiyanı təşkil edir | a. Psixoloji konsultasiyanın həyata keçirilməsində ümumi qaydaları izah edir;<br>b. Konsultasiya prosedurunu problemə uyğun müəyyən edir;<br>c. Konsultasiya zamanı müxtəlif psixotexnikaları müvafiq qaydada tətbiq edir. |
| 3. Psixoloji konsultasiya prosesini qiymətləndirir | a. Psixoloji konsultasiya prosesində kliyentin jestlərini qiymətləndirir;<br>b. Psixoloji konsultasiya prosesinə kliyenti müxtəlif vasitələrlə öz probleminə mərkəzləşdirir;<br>c. Psixoloji konsultasiya prosesində baş verənlərin mahiyyətini müvafiq şəkildə qeydə alır;<br>d. Psixoloji konsultasiya prosesinin nəticələrini ümumiləşdirərək qiymətləndirir. |

| Psixodiaqnostikanın həyata keçirilməsi | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Proses üçün hazırlıq işlərini həyata keçirir | a. Psixodiaqnostikanın prinsip və məqsədlərini sadalayır;<br>b. Uşağın inkişafının anamnezini müvafiq qaydada toplayır;<br>c. Anamnezin nəticələrinə uyğun psixodiaqnostik proses üçün müvafiq metodu müəyyən edir. |

| Psixodiaqnostikanın həyata keçirilməsi | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 2. Psixodiaqnostikanı həyata keçirir | a. Uşaqla müvafiq qaydada ünsiyyət qurur;<br>b. Psixodiaqnostika prosedurunu tamamlayır. |
| 3. Psixoloji diaqnozu tərtib edir | a. Diaqnostika nəticələrinin kəmiyyət və keyfiyyət təhlilini edir;<br>b. Psixoloji diaqnozu qaydalara uyğun tərtib edir;<br>c. Valideyn, müəllim və tərbiyyəçilərə müvafiq qaydada tövsiyələr verir. |

| Psixokorreksiyanın həyata keçirilməsi | |
|---|---|
| ***Təlim (öyrənmə) nəticələri*** | ***Qiymətləndirmə meyarları*** |
| 1. Psixokorreksiya proseduruna hazırlıq işlərini həyata keçirir | a. Aparılacaq psixokorreksiya işinin xüsusiyyətlərini müəyyən edir;<br>b. Yaşlar üzrə korreksiya işi aparılacaq psixoloji sahəni müəyyənləşdirir;<br>c. Klientin vəziyyətinə uyğun resurslar seçir;<br>d. Təhsilalanların ehtiyaclarına uyğun fərdi və qrup korreksiyası üçün proqram tərtib edir. |
| 2. Psixokorreksiya prosesini həyata keçirir | a. Problemə uyğun hazırlanmış korreksiya və ya inkişafetdirici proqramı tətbiq edir;<br>b. Proqramda qoyulan fərziyyəni yoxlamaq üçün metodlar seçir;<br>c. Psixokorreksiya prosedurunu mərhələlər üzrə həyata keçirir. |
| 3. Psixokorreksiya işinin nəticələrini qiymətləndirir | a. Klientdə yaranmış dəyişmələrin qoyulmuş fərziyyəyə uyğunluğunu müəyyən edir;<br>b. Korreksiya-inkişafetdirici işin nəticəsində baş verən dəyişmələri izah edir;<br>c. Korreksiya prosesinin nəticələri haqqında klientə müvafiq qaydada məlumat verir. |

## 14. Pedaqoji prosesin təşkili:

Pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün təhsilverənlərin əlaqələndirici, istiqamətverici, məsləhətçi, təhsilalanların isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında aşağıdakı prinsiplər nəzərə alınmaqla qurulur:

- pedaqoji prosesin tamlığı – pedaqoji prosesdə təlimin məqsədləri kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir və təhsilverənlə təhsilalanların real nəticələrlə yekunlaşan birgə fəaliyyətini əhatə edir;
- təlimdə bərabər imkanların yaradılması – bütün təhsilalanlara eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;
- təhsilalana yönəlmə – təhsilalan pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi təhsilalanların maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;
- inkişafyönümlülük – təhsilalanların əqli fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;
- fəaliyyətin stimullaşdırılması – pedaqoji prosesin səmərəli və effektiv qurulması, təhsilalanların təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə təhsilalanların təlim nəticələrinə daha uğurlu istiqamətləndirilməsi təmin edilir;
- dəstəkləyici mühitin yaradılması – pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Tədris prosesində aşağıdakı aktiv və interaktiv təlim metodlarının mütəmadi olaraq tətbiq olunması məqsədəmüvafiqdir:

a) *Açıq müzakirələr* - təhsilalanların müəyyən mövzu ətrafında fikir mübadiləsinə cəlb edilməsində əsas məqsəd onların şəxsi fikir və ideyalarını öz sözləri ilə ifadə etmək bacarığının məşq etdirməsi üçün şərait yaratmaqdır. Bu, onların yaradıcılıq, mədəni özünüifadə və ünsiyyət bacarıqlarının inkişafına xidmət edir.
b) *Beyin həmləsi metodu* - bu, diskussiyanın sərbəst formasıdır. Təhsilalanlarda yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini aydınlaşdırmaq məqsədilə bu metoddan istifadə olunur. Bu metoddan təhsilalanları fəallığa həvəsləndirmək və konkret problemi həll etmək, yaxud suala cavab axtarmaq üçün istifadə olunur.
c) *Cütlüklərdə iş* - təhsilalanların cütlüklərdə işə cəlb olunması müxtəlif məqamlarda müəyyən məqsədə xidmət edə bilər. Təqdim olunmuş materialın təhsilalanlar tərəfindən mənimsəmə səviyyəsini qısa müddət ərzində yoxlamağa imkan verməklə bərabər, cütlüklərdə iş onların əməkdaşlıq etməsi üçün də əlverişli şərait yaradır.
d) *Qruplarda iş* - müxtəlif bilik səviyyələrinə malik olan təhsilalanlar kiçik qruplarda işləməklə əlaqə yaratmaq, informasiyanı bölüşmək, bir-birinə təsir göstərmək və birgə qərar çıxarmaq imkanı əldə edirlər.
e) *Fərdi iş* - hər bir təhsilalanın fərdi bacarığını müəyyən etmək üçün dərs prosesi zamanı fərdi tapşırıqların təyin edilməsi çox vacibdir. Təhsilalanların qruplarda, cütlüklərdə və ya fərdi olaraq işləməsindən asılı olmayaraq, bütün hallarda təhsilverənin əsas vəzifəsi monitorinq keçirmək, ara-sıra müdaxilə etməklə tədris və mənimsəmə prosesindəki çətinliklərini aşkar etmək və onları aradan qaldırmaqdır.
f) *Nəzarət edilən və sərbəst təcrübə* - təqdim olunmuş yeni materialın təhsilalanlar tərəfindən düzgün qavranılması və dəqiqliklə tətbiq olunması bilavasitə təhsilverənin bələdçiliyi altında baş verməlidir. Təhsilalanların sonradan öz iş təcrübəsində müəyyən səhvlərə yol verməsinin qarşısını qabaqcadan almaq üçün ilk əvvəl nəzarətli təcrübə həyata keçirilməlidir. Bu yolla təhsilalanların qarşılaşdıqları çətinliklər üzə çıxarılmalı, aradan qaldırılmalı və yalnız bundan sonra onlar sərbəst təcrübəyə cəlb olunmalıdırlar.
g) *Rəylər cədvəli* - bu məşğələni yerinə yetirərkən təhsilalanlar auditoriyanın ön hissəsində duraraq mübahisəli məsələlər haqqında mövqelərin arasıkəsilməz ardıcıl xəttini

yaratmalıdırlar. Bu üsul mürəkkəb və birmənalı olmayan vəziyyətlərdə qərar qəbulunu asanlaşdırır, düşünülmüş qərar qəbul etməyə kömək edir.

h) *Rol oyunu metodu* - təhsilalanlara gözlənilməz situasiyalar təqdim etməklə onların təcrübəsini artırmaq metodu olub, təhsilalanın hər hansı birinin prosesdə rolunun qəbul edilməsini və situasiyanın sonluqla başa çatmasını nəzərdə tutur. Rol oyunları metodu təhsilalanlara öz fəaliyyətlərini və hisslərini qiymətləndirməyə, real həyata bənzər vəziyyətdə bacarıqlarını inkişaf etdirməyə imkan yaradır.

i) *Hər kəs biri-birini öyrədir* - bu metod təhsilalanlara tədris prosesində öyrəndiklərini digərləri ilə bölüşdürməyə imkan yaradır.

j) *Sual*-cavab - bu metod bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsinə, boşluqların aradan qaldırılmasına və yaradıcılığın inkişaf edtirilməsinə xidmət edir. Sualların məharətlə verilməsi aşağıdakı nəticələrin əldə edilməsinə imkan yaradır: öyrənməyə olan marağı və motivasiyanı artırır; qrupun bilik qazanmasına və daha çox fayda əldə etməsinə yardım edir; qrup üzvləri arasında ünsiyyəti artırır; bacarıqlar barədə düşünməyə və bu düşüncələri təcrübədən keçirməyə sövq edir; düşüncə və hisslərin ifadə olunması prosesini inkişaf etdirir; iştirakçıların bilik və dərrakəsinin qiymətləndirilməsi üçün istifadə oluna bilir.

## 15. Yekun dövlət attestasiyası

Bakalavriat səviyyəsində ixtisaslar üzrə təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır.

Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvəffəqiyyətlə keçmiş tələbələr yekun attestasiyaya buraxılırlar.

Yekun attestasiya bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədir.

Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanı (fənlərarası) və ya buraxılış işinin müdafiəsindən ibarətdir.

Bakalavriat səviyyəsində tələbələrin topladığı kreditlərin sayı 210 olmalıdır. İxtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Ali təhsil müəssisələrində bakalavriat səviyyəsinin təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında “bakalavr” ali peşə-ixtisas dərəcəsi verilir.

Yekun attestasiyanın təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

**13. Xüsusi qayğıya və ya əlavə dəstəyə ehtiyacı olan tələbələr:**

Təlim planlaşdırılarkən, qiymətləndirmə vasitələri seçilərkən və ya təhsil proqramına sonradan hər hansı bir düzəliş edilərkən xüsusi qayğıya ehtiyacı olan təhsilalanların ehtiyacları nəzərə alınmalıdır.

**14. Kurikulumun hazırlanması prosesində iştirak edənlərin siyahısı:**

| N: | İştirakçının adı, soyadı: | Təşkilat və yeri: |
|---|---|---|
| 1. | Aytən Hüseynova | İlyas Əfəndiyev adına "Elitar" gimnaziya |
| 2. | Cəfərova Fidan | Avropa Azərbaycan Məktəbi |
| 3. | Məmmədov İlqar | Humanitar fənlər təmayüllü məktəb-lisey |
| 4. | Limunət Əmrahlı | "Psixoqamma" uşaq inkişaf mərkəzi MMC |
| 5. | Hüseynova Bahar | «İNKİŞAF» Respublİka Elmİ-Praktik mərkəzi (REPM) |
| 6. | Seyidova Ləman | Heydər Əliyev adına Lisey |
| 7. | Cabbarova Lalə | Bakı Dövlət Universiteti |
| 8. | Amin Çərkəzov | Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsinin eksperti |

| | | |
|---|---|---|
| 9. | Aynur Kərimova | Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsinin eksperti |
| 10. | Emil Əsgərov | Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsinin eksperti |
| 11. | Genevieve McCabe | Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsinin eksperti |
| 12. | Mehparə Əhmədova | Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək layihəsinin eksperti |